

# Günlü yağışdan sonra...

*Rəşid Faxralı*

**Yaranma tarixi bəlli olmasa da, bayatılarımız min illərdi yaşayır, yaşadır. Milli-xəlqi ruhumuzdan iraq (uzaq) düşməyənlər üçün bayatılarımızın bədii dəyəri zərrəcə azalmayıb (azalmayacaq da!). Yaxşı şeir də, yaxşı şeirlərin kitabı da belədi. Əjdər Olun "Könül vuruşu" kitabı kimi...**

Ləçək üstə şeh, yarpaqlara sarılan meh, gözlərimizi çəkən, gözlərimizdən sürüşüb könlümüzə düşən qövsi-qüzeh misallı şeirləri həmişə dan yerinə oxunan dua bilmişəm...

***

Zaman təsdiqləyir ki, misralarında (bəndlərində) poetik işıq olan şeir yaşarı şeirdi...

Poetik işıq, poetik nur görünmür, sezilir, duyulur. Ürəyin, beşiyi ürək olan duyğuların gözü ilə baxmayanlar bu işığı, bu nuru görə bilmir. O işıq, o nur görünür də, oxuyanı düşündürür də. Ədəbiyyatın, bu anlamda poeziyanın missiyasının istiqamətlərindən biri də budur: poeziya düşünə-düşünə sevənlər, sevə-sevə düşünənlər üçündü. Bunu "Könül vuruşu" kitabının poetik qayəsi də təsdiqləyir....

Şeirin poetik dəyəri oxucunun duyğularına sığal çəkən, oxucunu düşündürən, fikirlə hissin, ağılla duyğunun biri digərini hansı səviyyədə tamamlaması ilə ölçülür. Ədəbi tənqidin bu ülgüsünə tam cavab verən hər kitab düşüncələrimin qırışığını açıb...

Mövzu fikir(bədii fikir)inkişafda(dinamik inkişafda)veriləndə, obrazlılıqla fəlsə-filik,konkret fikirlə poetik genişlik vəhdətdə götürüləndə, üslubi məqamlar, ahəngdarlıq şeirin sonunacan (möhürbəndəcən, sonuncu durğu işarəsinəcən) inkişaf etdiriləndə şeir (yaxşı şeir) olur. "Könül vuruşu" belə şeirlərin kitabıdı. Bu kitabda poeziyanın qüdrətini, qüdrətdən rişələnən poetik idrakın poetexnikasını, bədii sözün səmimiliyini duymaq çətin deyil. Sözə nəfəs verən, dil verib dilləndirən poetik duyum, poetik duyum biçimində şair sözü mənə zamanında da qədərsiz könül xoşluğu vermişdi, indi də gecəmi könül xoşluğuyla səhər elədim...

Əjdər Ol sözün nazını çəkə-çəkə sözə ömür verən şairdi. Nədən yazırsa-yazsın, yazdıqları düşüncələrinin söz görüntüsüdü və bu görüntülərin mahiyyəti xalqa, zaman anlamında xalqın dünəninə, dünənindən sabahlarına aparan yoldu. Həm də işıqlı yoldu. Bu yol "özü öz başına sığal çəkənlərin" adından yazan Əjdər Olun öz yoludu - söz yoludu...

"Könül vuruşu" şeirində irfanilik məqamı da seziləndi. Yunus Əmrəmiz "Bir mən də var məndə məndən içəri" deyirdi. O "ikinci mən" sözü yaşantılarına üzərrik eləyənlərin, dünyaya sözün işığından baxanların, nərgiz ləçəyində şehi də, yarpaq titrədən mehi də, bulaqların axışını da, göy üzünün ağ yağışını da, şimşəyin çaxışını da şeirləşdirmək istəyənlərin, bunu bacaranların əzəli könül həmdəmidi. Bəzən bu mizan pozulur. Dünya pozur bu mizanı. Onda şair dünyanın axarını düz yola yönləndirmək üçün son çarə kimi könülüylə vuruşur (şair ürəyinin qüdrətinə tapınmaqla):

**Dönük zəmanəylə öz aramdakı**
**Könül vuruşudur, könül vuruşu -**

misralarının

**İnsanlar, mən sizin aranızdayam,**
**Günəşli qiyamət gününə kimi -**

misralarıyla tamamlanması bəşəri ümumiləşdirmə kimi qəbul edilməlidir.

Əjdər Olun (şeirdə şair obrazının) sözünün (və deməli özünün!) fəzilətlərini görən dün-yanın sözdən (şeirdən) yaşındığını, daldalandığını, əslində, gizləndiyini duymaq şairin bədii təfəkkürünün səviyyəsini müəyyənləşdirir. Bəlkə sözün işığı "arşını əyilmiş dünyanın" gözünü qamaşdırır, ona görə gizlənir? Suçunu dərk elədiyinə görə gizlənir bəlkə? Həm də harda gizlənir? -

**Gah çiçək arxasında,**
**Gah məslək arxasında,**
**Gah böcək arxasında**
**Dünya məndən gizlənir.**

**("Gizlənən")**

Mahiyyəti etibarilə bəşər də təbiətə bənzəyir. Onun da yaşamının yazı, payızı, qışı var. Bu məlum bilgini gözəlim poeziya da (digər şairlər kimi Əjdər Olun da yaradıcılığında da) təsdiqləyir

"Qış vaxtından qalan buludu" tanıyan, "Günün yazın tərəfinə keçdiyini" ("Yaz") hiss eləyən, təbiətin bir gününün görüntüsünə

**Qış vaxtından qalan bulud**
**Keçdi yazın tərəfinə.**
**Soyuqlayan qoca palıd**
**Keçdi yazın tərəfinə -**

biçimli söz ömrü verən Əjdər Ol folklorumuza kifayət qədər yaxşı bələd olan şairdi. Duyumlu oxucu onun el kəlamlarına gətirdiyi yeni ifadə çalarlarını tütyə kimi gözlərinə sürtməyə həvəsiyir: "İslanmışın yağışdan nə qorxusu", "kürkünə birə düşdü", "dərdi sonulamaq", "kişi qırığı", "saş yelən salır", "qurdla qiyamətə qalmaq" və s...

Yaşınmaq, gizlənmək ifadələri var. Bu ifadələrin "yaşıdım" formatında (formasında) təqdim edilməsi, zənnimcə, poetexniki uğur hesab edilməlidi (eyni fikir şeirin adı haqqında da deyilməlidi: "Ovcum güldanımdı"):

**Bir qucaq çiçəyi**
**...ağrıma basıb**
**Yaşıdım özümü, örtdüm özümü.**

"Kişi qırığı"el ifadəsidi.Yeniyetmənin ərənlik çağının çatdığına işarədi.Poeziyamı-zın(ümumən bəşəri poeziyanın) Füzulisinin şeiriyyət işığının zərrəsi olmaq xoşbəxtliyi hər şairə nəsib olmur. Özünün iç dünyasında (şeirlərinin mahiyyətində,



poetikasında) belə bir zərrəni hiss eləyənlər, təbii ki, poeziyada özünü "Füzuli qırığı", "Füzuli işığının zərrəsi" hesab etməyə haqlıdır.

Füzuli "Xudaya, bəlayi-eşq ilə qıl aşina məni" deyirdi. Zaman-zaman ədəbi material kimi sevgidən (sevdadan, məhəbbətdən, eşqdən) Füzulinin şeirduasının kölgəliyində minlərlə müxtəlif ovqatlı sevgi şeirləri yazılıb. Yazılacaq da. Neçə-neçə beytlər sırasında Əjdər Olun

**Eh, məni nə qədər incitsələr də,**
**"Sevgi cəzasıdır", - deyib dözərəm,**

beytini də,

**Başdan eləyirəm, başdan əkirəm,**
**Kim doğan səhərə şükür eləmir.**
**Əzabı mən elə gözəl çəkirəm,**
**Bir kimsə dərdimdən fikir eləmir -**

**("Mən")**

bəndini də sevginin (sevdanın, məhəbbətin, eşqin) fəlsəfi dərkinə özünəməxsusluğuyla səciy-yəvi olan açar bilirəm. Füzulimizin zərrəsi olmaq budur...

"Günəşin sarısının, Ayın yarısının ağacların yarpaqlarında gizləndiyini" müşahidə eləyən ("Sapsarı"), "gecə küləyindən ruhu üşüyən" ("Yağış yağasıdır, durna köçəsi") şairin "Ağırlıq" şeirində cavabı oxuyanın dünyaduyumundan boy göstərən sualın fəlsəfi mahiyyəti düşündürücüdür:

**Ayın ağırlığı göyəmi düşür,**
**Yoxsa yuyunduğu dənizə, çaya?!**

Və bu ovqat içində

**Sözündən qan damar yanaqlarımın,**
**Utana-utana çıxıb gedərəm.**
**Bir kimsə ovutmaz, oxşamaz məni,**
**Gözümü qəlbimə sıxıb gedərəm -**

**("Utana-utana")**

misralarının cazibəsinə düşürsən. "Gözünü ovcuna sıxmaq" ifadəsi məlum. Səmimiliyi duyulan, doğmalığı cana-qana hopan "gözünü qəlbinə sıxmaq" ifadəsinin təravətini necə etiraf etməyəsən?!..

Əzabı (şeirlərin mətləbi deyir ki, bu əzab Füzulimizin şeirləşdirdiyi əzabdı, ilahi qüdrətiylə duyumluların yaşamının göyqurşağı olan əzabdı) özünə, özünü əzaba yaraşdırmaq (həm də etiraf etmək) şairin sözə sayğısıdı, şübhəsiz. Etiraf o qədər səmimidir ki, poetik biçimli bu qətiyyəti özününkü bilirsən:

**Əzabdan niyə qorxuram**
**Qorxum yoxdursa ölümdən.**

**("Nə xoş oldum")**

Bu qətiyyət, bu iradə, bu dözüm "Qar üstündən qar ələndi" şeirində sezilməsi çətin olmayan bir ürkəcək gileyi belə əritməyə, kül eləməyə qadirdir. Gileyin ünvanı məlum olmasa da (açıqlanmasa da) duyulandı: Dünya. Dünya şairi niyə sıxılcımlara salır? İşləklərinə göz yummadığına (yuma bilmədiyinə) görəmi? Buna oxucunun düşüncələri cavablamalıdı. Məlim bir həqiqətdir ki, mətləb üçün hazır düstur olan şeirin poetikası solğunlaşır və bu solğunluq gec-tez dünyanın bət-bənizinə hopur. Buna baxmayaraq, Dünya (Əjdər Olun təqdimatında dönük zəmanə):

**Papağıyla qar daşıtdı**
**Əjdər Ol kimi üzgünə.**

Üzgün (yorğun) yolçu (SÖZ yolunun yolçusu) yenə inamlıdı, ümidlidi. Bu inam da, ümid də sabahlara görədi; "Hər qaranlıq gecənin aydın səhərinə" şeirin işığından baxan, "həmişə Əjdər olan, Əjdər olduğunu unutmayan" (Rafail Hüseynov) Əjdər Ol səmimiliklə, doğmalıqla deyir ki:

**Gecəmiz xeyirə qalsın,**
**Gecəmiz şeirə qalsın.**

Xeyir - şeir kəlmələri təkcə gözçəkən qafiyə deyil, həm də mətləb yaxınlığının (eyniliyinin) poetikasıdır. Şeirin xeyir panteonunun (Zərdüşt fəlsəfəsi) tərkib hissəsi olduğunun xatırladılmasıdır. Şeirin xeyir (xeyirli) fikir olduğunu etiraf edənlərə sayğıdır, inkar edənlərə etirazdır.

Misraların bətnindən boy göstərən, az qala yaşam düsturu kimi qəbul edilməli olan şair sözü - mətləb deyir ki, "şair sözü yalan deyil". "Qəmli şəkil kimi yadda qalmaq istəməyən" ("Utandım"), "hər tıqqıltıdan başlayan ümidə görə" ("Gözləyə-gözləyə")

**Birtəhər günümü axşam eyləyib,**
**Yoxsa payız mənə ömür düzəldir -**

deyən, payız atributunun poetik mahiyyətini Əjdər Ol kimi yozan (və təqdim edən),

**Üşüdür ruhumu gecə küləyi,**
**İndi külək - xəzan, yarpaq - xəzəldir, -**

sıxıntısını ürəyinə yük eləyən, bu yükün poetikasına tapınan şairin sıxıntılarının bir ünvanı var: Torpaq. İşğal olunmuş torpaqlarımız."Qana-qan"(qana görə qan almaq)fəlsəfəsi mahiyyəti etibarilə milli-xəlqi heysiyyətə söykənir; Əjdər Ol "Saçına özü sığal çəkənlərin" adından məğlubiyyətlərə görə qisas alınmalı olduğunu xatırladır:

**Qılınc deyil dönüb girə qına qan.**

"Qan"şeirinin mahiyyəti, bədii-fəlsəfi yükü deyir ki, bu qisas, qana görə qan torpaqlarımızın işğaldan azad edilməsi olacaq. Elə bu mətləb də şairin poeziyasının bəşəriliyinin atributudur.

Şeir şairlə oxucunun könül söhbətidi. Əjdər Olun şeirlərini oxuduqca belə könül söhbətinin səmimiliyinə heyrətlənirsən, Əjdar Olun poetik dünyasında yad küləklər əsmədiyinə əmin olursan. Söz dünyasının (öz dünyasının!)işığınışeir-şeir,bənd-bənd,misra-misra"qılıncı qınsız, qolu qüvvətli"(Şair Nəbi)dünyanın (Əjdər Olun təqdimində dönük zəmanənin), Həllac Mənsurun, Nəsiminin, Hadinin, Hüseyn Cavidin, Müşviqin, Səməd Behrənginin, torlaşmış gözlərinə çiləyir. Bu cəhdin ovsanata keçib-keçməyəcəyinin fərqinə varmadan. ..

***

Uşaqlığımda, yeniyetməliyimdə günlü yağışın (Əjdər Olun təqdimatında "Günəşli yağış": "Bir yandan günəş çıxıb, Bir yandan yağış yağır") "yelinə uçurduq". Günlü yağışdan daldalanmırlar, ona ovuc açırlar. günlü yağışdan sonra göylər də, yer də göz doydurur, könül xoşluğu olur. Hər yaxşı şeirlər kitabı mahiyyəti etibarilə günlü yağış misallıdı: nəşrindən sonra könül xoşluğuyla anılır...

**Günlü yağışdan sonra yazılacaq şeirlərin təşnəsiyik. Bu gözəllikdən şeirlər yazacaq şairlərin sırasında "Könül vuruşu" kitabının müəllifini də görəcəyik. Mütləq görəcəyik...**